

*Əli Çərkəzoğlu*

## QANLI ÇƏMBƏRƏKƏND, QARA QƏRƏNFİL...

Bu gün xəyalını qazıb zindana,
Qoymadım qarışa uçan zamana.
Get,- dedim, "Şəhidlər Xiyabanı"na,
Bizi gözləyəcək o suçsuz tifil -
Qanlı Çəmbərəkənd, Qara Qərənfil.

Keçib Şəhidlərin bir-bir önündən,
İlqara, Fuada salam de məndən.
Demə ayrılıqdı, öp gözlərindən,
Ver dostluq borcumu əlbəəl təhvil -
Qanlı Çəmbərəkənd, Qara Qərənfil.

Şəhid qardaşlarım səni qarşılar,
Mərmərin içindən donuq baxışlar,
Azadlıq car çəkən ilk Qaranquşlar,
İnam cücərtdilər Millətdə o il -
Qanlı Çəmbərəkənd, Qara Qərənfil.

Yaxşı xatırla, o soyuq günləri,
Üst-üstə yığılan qıc meyidləri,
Yandı babaların daş sümükləri...
Bu dərin yaranın məlhəmi deyil -
Qanlı Çəmbərəkənd, Qara Qərənfil.

Şimaldan Səlibə gəldi "şinellər",
Göyə ölüm yazdı xaçlı güllələr,
Tankları hələ də sinəmdədirlər,
Çarpaz dağ çəkdilər o gecə qəfil -
Qanlı Çəmbərəkənd, Qara Qərənfil.

Gülə də kəmfürsət tuşladı silah,
Gül də ağı deyib ağlamış, Allah!..
Sən, qoyma cəzasız qalsın bu günah,
Durur qətl yerində iki sərt dəlil -
Qanlı Çəmbərəkənd, Qara Qərənfil.

Həmin gecə mən də növbədə idim,
Firuz buraxmadı, İlqar, gəlirdim.
Mən səndən cavandım - cəld tərpənərdim...
Bəlkə də, indi sən qoyurdun əklil -
Qanlı Çəmbərəkənd, Qara Qərənfil.

Yox, yox, yas tutmuram, qəlbən toxdağam,
Ölməz Şəhidləri gəldim yoluxam,
Azad Vətənimə onlarla baxam.
Yazsın qan-yaddaşa şairanə dil -
Qanlı Çəmbərəkənd, Qara Qərənfil.

## Şəhid Mübariz

*Milli Qəhrəman*
*Mübariz İbrahimova ithaf olunur*

Komanda "Farağat!", "Sağa bax, düzlən!",
Paşalar baş əyib, "Salam!" söyləsin.
Cərgəni pozmayın, Şəhiddir gələn,
Sinələr irəli! "Nərə çəkilsin!!!".

Qəzəblə danışır prezidentimiz,
Düyüb yumruğunu, çatıb qaşını.
Abidə yeridir Ona qəlbimiz -
Deyib, qarşılayır "Qızılbaşını".

Ruhum qondu Bəzzdən ən Ucalığa,
Mübariz Babək tək ismi-özəldi.
Qorxdu nəşindən də bicəngə dığa,
"Dövlət bəyin ölüsü də gözəldi".

Qisas ümmanıdı hər damla qanın,
Sabah boğulacaq, bu gün axıdan!
O gecə tükənən səbrin, qərarın,
Nə qədər böyükmüş kaftar yağıdan...

Gizlət göz yaşını, ağlama, ana! -
Görürsən Vətən də narahat olur.
Bu əsən meh deyil, fikir ver ona,
Vətənin ahıdır, yaşı qurudur.

"Balam vay!" demə ki, Vətən inciyər,
Mübariz onun da oğludur axı.
Şəhidçün dil demə, ruhu kiçilər,
Şəhid ki, yaxından görür Allahı.

Südün qeyrət axıb, laylansa muğam,
Məzlum doğmaz türkün "şir anaları".
Hələ qundaqdadır neçə "Ər-çağan",
Vətənçün böyüyür Qəhrəmanları.

Başını uca tut, səngər yoldaşı,
Komanda "Farağat!", "Sağa bax, düzlən!",
Vurulur şəninə "Şərəfin marşı",
Şəhid addımlayır cərgə önündən.

Yazılar tarixə bu səlnamə də,
"Turan" çox qazanıb cəngi savaşı...
Ruhun yaşayacaq elin qəlbində,
Qədəmin mübarək, "Vətən yaddaşı"!
Vətənə xoş gəldin, ey Vətən daşı"!

## Aramızdadı Füzuli...

Kim deyir Füzuli ölüb, yaşamır,
Düşmən gülləsinə tuşdu haçandı?!.
Yalandı, o sağdı, sizlə danışmır,
Sizlərə görünməz, çün laməkandı.

Dünən ayaqüstü sabahda gördüm,
Mən axı zamanda gəzə bilirəm.
Üzündən istədim, gözündən öpdüm.
Dedi, bacıoğlu çox tələsirəm.

Soruşdum hardasan, nə olub yenə,
Yazıq babam dözmür bu məchulluğa.
Dedi, ona de ki, şükür bu günə,
Hələ keşikçiyəm qanunçuluğa.

Gördüm ki, açılmır heç qaş-qabağı,
Başqa ad çəkmədim, əsəbləşməsin.
Dərdimi gizlətdim atamsayağı,
O qədər dərdi var, - məni bilməsin...

Yamyaşıl mundirdə, bəyaz köynəkdə
Qaməti yenə də pis gözə oxdu.
Heç nə parlamırdı, amma çiynində,
Dedi, mənə layiq ta ulduz yoxdu!

Dedi, bura yaman tez-tez gəlirsən,
Yerdə yer tapmırsan, təksən, bilirəm.
Gendən göz qoyuram, mənə çəkmisən,
Mən səni hamıdan artıq sevirəm.

Yan-yana dayandıq, çiyin-çiyinə,
Döşündə bərq vurdu "Şöhrət Ordeni".
Qürur sığal çəkdi şair qəlbimə,
Tanrı dost bilirmiş şah Füzulini.

Ölümsüz dahidir "O" (c.c), özü seçir,
"İsmayılı Qurban" seçdiyi kimi.
Yaxşının qədrini "O" (c.c) yaxşı bilir,
Erkən imzalayır əfvi-qələmi.

Son dəfə baxışdıq, bərk qucaqladım,
Dedi, qələm səni çox güclü edib.
Ağlaya bilmirdim, yaman ağladım,
Dedim, dayı ruhdu, can əldən gedib.

Halallaşdıq, sağollaşdıq, ayrıldıq
Günəşin istisi azaldı bir az.
Füzuli də getdi biz ayrılmadıq,
Ona görə küsüb, heç vaxt barışmaz.

Deməyin Füzuli ölüb, yaşamır,
Düşmənin gülləsi boşa çıxandı.
Bilir Çərkəzoğlu, niyə danışmır,
Bilir ki, dayısı indi hardadı -
Füzuli ölməyib, o, laməkandı...